## QƏRBİ AZƏRBAYCAN









### XX əsrin bəlası - Deportasiya

# Qərbi Zəngəzur: tarixi yaddaş, silinməyən deportasiya izləri

**Qərbi Zəngəzur Azərbaycan xalqının tarixi yaddaşı və milli kimliyinin ayrılmaz hissəsidir. Bu ərazi minilliklər boyu Azərbaycanın tərkibində olub və zəngin mədəni irsə, tarixi abidələrə və çoxəsrlik yaşayış məskənlərinə malikdir.**

**Qərbi Zəngəzurun Azərbaycan torpağı olduğunu sübut edən çoxsaylı tarixi, arxeoloji və siyasi faktlar mövcuddur. Arxeoloji qazıntılar zamanı aşkarlanan qədim kurqanlar, daş kitabələr, məbədlər və yaşayış yerləri bu torpaqların Azərbaycan xalqına aid olduğunu göstərir. İslamdan əvvəlki dövrlərdə bu ərazilərdə türk tayfalarının yaşadıqları məlumdur. Orta əsrlərdə isə Qərbi Zəngəzur Naxçıvan, Qarabağ və İrəvan xanlıqlarının mühüm hissəsi olmuşdur.**

Arxeoloji tədqiqatlar sübut edir ki, Qərbi Zəngəzurun geniş ərazilərində Azərbaycan türklərinin əcdadları olan qədim tayfalar məskunlaşmışlar. Maddi-mədəniyyət nümunələri göstərir ki, bu torpaqlarda məskunlaşma eramızdan əvvəl IV-III minilliklərə qədər uzanır. Xüsusilə Göyçə gölü ətrafında aşkarlanan dörd min illik yaşayış məskənləri və Şörəyel bölgəsində tapılan Son Tunc və Erkən Dəmir dövrlərinə aid qəbirlər tarixi faktları inkaredilməz həqiqət kimi önə çıxarır. Burada aşkar edilən dolixokran (uzun kəllə) tipli insan qalıqları bu regionun əzəli sakinlərinin türk mənşəli olduğunu isbat edir. Bu, erməni mənşəyinə aid edilən braxikefal (qısa kəllə) tipindən tamamilə fərqlənir və Azərbaycan türklərinin bu ərazidə qədimdən yaşadığını elmi əsaslarla təsdiq edir.



Azıx mağarasında aşkar edilən 350-400 min illik insan çənəsi Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olduğunu sübut edən mühüm tapıntılardandır. Qarabağ, İrəvan ətrafı, Dərələyəz və Zəngəzur bölgələrində tapılan maddi-mədəniyyət nümunələri - silahlar, məişət əşyaları, keramika məmulatları Kür-Araz mədəniyyəti ilə üst-üstə düşərək bu torpaqlarda türklərin tarixi etnik varlığını açıq şəkildə nümayiş etdirir.

Qərbi Zəngəzurun Azərbaycan torpağı olması tarixi sənədlərlə də öz təsdiqini tapır. XIX əsrdə Rusiya imperiyasının Qafqazda apardığı geosiyasi siyasət nəticəsində Azərbaycan xalqının taleyi dəyişdi. 1813-cü ildə bağlanan Gülüstan və 1828-ci ildə imzalanan Türkmənçay müqavilələrindən sonra Azərbaycan torpaqlarının İran və Rusiya arasında bölüşdürülməsi nəticəsində Qərbi Zəngəzur şimali Azərbaycanın tərkibində qaldı. Lakin 1920-ci illərdə Sovet hakimiyyəti məqsədli şəkildə bu əraziləri Ermənistana verdi.

Bu proses təkcə sərhədlərin deyil, həm də demoqrafik quruluşun dəyişdirilməsi siyasəti ilə davam etdi. Bölgədə min illər boyu yaşayan Azərbaycan türkləri kütləvi şəkildə sıxışdırıldı, deportasiyalara məruz qaldı və ermənilərin məskunlaşdırılması prosesi həyata keçirildi. Beləliklə, Qərbi Zəngəzurun əsrlər boyu formalaşmış tarixi və etnik siması dəyişdirildi.

Tarix bəzən sərt qərarlarla yadda qalır. XX əsrin əvvəllərində Azərbaycanın siyasi taleyi cəmi iki il mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə kökündən dəyişdi. 1920-ci il aprelin 27-də bolşeviklərin Bakıya daxil olması ilə Azərbaycan Sovet Rusiyasının nəzarətinə keçdi. Bununla da Moskva Cənubi Qafqazda siyasi prosesləri tamamilə öz iradəsinə tabe etdirdi. Sovet Rusiyasının regionla bağlı siyasətinin əsas istiqamətlərindən biri isə ərazi dəyişiklikləri idi. 1920-ci ilin iyun-iyul aylarında Sovet Rusiyasının ali dairələrində Qərbi Zəngəzurun taleyi ilə bağlı müzakirələr başladı. RK(b)P-nin Qafqaz Bürosunun katibi Qriqori Orconikidze və RSFSR xarici işlər komissarı Georgi Çiçerin arasında aparılan yazışmalarda bu ərazilərin Ermənistana verilməsi məsələsi gündəmə gətirildi. Moskvanın məqsədi təkcə regionun xəritəsini dəyişmək deyildi - Sovet rəhbərliyi Ermənistanı öz təsir dairəsində saxlamaq üçün ona strateji güzəştlər edirdi.

Bolşeviklər bu qərarı "beynəlmiləlçilik" və "sülhün təmin olunması" kimi təqdim etsələr də, əslində bu, siyasi maraqlara xidmət edirdi. Qərbi Zəngəzurun Ermənistana bağışlanması Azərbaycanla Naxçıvan arasında quru əlaqəsini kəsməklə yanaşı, bölgədə demoqrafik tarazlığın pozulmasına gətirib çıxardı. 1920-ci ilin noyabrında Qərbi Zəngəzurun Azərbaycanın tərkibindən çıxarılması və Ermənistan Sovet Sosialist Respublikasına birləşdirilməsi rəsmən həyata keçirildi. Bu prosesin nəticələri acı və dağıdıcı oldu: azərbaycanlı əhali sistematik deportasiyaya məruz qaldı, onlar evlərini, kəndlərini tərk etməyə məcbur qaldılar. Eyni zamanda Ermənistana yeni köçürülən erməni əhali bu ərazilərdə yerləşdirildi. Tarixçi İlqar Niftəliyev qeyd edir ki, sovet qoşunları Zəngəzurda hərbi nəzarət yaradaraq yerli azərbaycanlıların, o cümlədən xalq qəhrəmanı Sultan bəy Sultanovun müqavimətini sındırdı.

Sovet hakimiyyəti özünü "xalqlar dostluğu" ideologiyasının carçısı kimi təqdim edirdi, lakin reallıqda aparılan siyasət fərqli idi. 1920-ci illərin sonlarından etibarən Azərbaycan türklərinə qarşı deportasiya və zorakı etnik təmizləmə dalğaları genişlənərək daha böyük miqyas aldı.

Qərbi Zəngəzurun Azərbaycan torpağı olması arxeoloji, etnoqrafik və siyasi faktlarla təsdiqlənmiş həqiqətdir. Tarixi nə qədər dəyişməyə çalışsalar da torpaq hər şeyi öz yaddaşına həkk edir və Qərbi Zəngəzur həqiqətləri ilə bir daha tarix səhnəsində öz yerini tutur.

Tarixdə elə hadisələr var ki, fəsadları dərin və uzunmüddətli olur. Qərbi Zəngəzurun Ermənistana verilməsi də məhz belə hadisələrdəndir. Bu, on minlərlə insanın faciəsinə səbəb olan humanitar fəlakət idi. 1905-1906-cı illər qırğınlarından başlayaraq, 1918-1920-ci illərdə baş verən soyqırımları, daha sonra isə 1987-1991-ci illərdə azərbaycanlı əhalinin tamamilə deportasiya edilməsi etnik təmizləmə siyasətinin açıq təzahürü idi. 1988-1991-ci illərdə Ermənistan ərazisində yaşayan 300 mindən çox azərbaycanlı ya qətlə yetirildi, ya da zorla öz yurdlarından qovuldu.

Bu proses təkcə insanların fiziki məhv edilməsi ilə bitmədi, eyni zamanda onların tarixi və mədəni irsinin izləri də sistemli şəkildə silindi. Azərbaycanlıların yaşadıqları kənd və qəsəbələr dağıdıldı, onların adları dəyişdirildi. Məsələn, Ağbulaq, Göyçə kimi qədim türk mənşəli toponimlər erməni adları ilə əvəz olundu. İrəvanda, Zəngəzurda və Göyçə mahalında mövcud olan yüzlərlə məscid, qəbiristanlıq və tarixi abidə vandalizmə məruz qaldı. Bu gün İrəvanda cəmi bir məscid (Göy məscid) qalıb ki, o da İran mədəni irsi kimi təqdim edilir. Təpəbaşı məscidi kimi Azərbaycanın tarixi memarlıq abidələri isə ya tamamilə dağıdıldı, ya da erməni izləri ilə saxtalaşdırıldı. Tarixin bu qara səhifəsi beynəlxalq hüquq normalarının kobud şəkildə pozulmasının nümunəsidir. Amma beynəlxalq təşkilatlar, xüsusilə də UNESCO və BMT bu vandalizmə qarşı hələ də konkret tədbirlər görməyib.

Bu gün Qərbi Zəngəzurun taleyi Azərbaycan və Ermənistan arasında siyasi müzakirələrin əsas mövzularından birinə çevrilib. Zəngəzur dəhlizinin açılması bütövlükdə regionda yeni geosiyasi düzəni formalaşdıracaq. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə vurğulayıb ki, Zəngəzur dəhlizinin açılması regionun iqtisadi əməkdaşlığını gücləndirəcək, Türkiyə və Mərkəzi Asiya ölkələri ilə birbaşa nəqliyyat əlaqələri yaradacaq. Lakin Ermənistan hökuməti bu məsələni siyasi manipulyasiya vasitəsinə çevirərək Azərbaycanın tarixi hüquqlarını inkar edir.

44 günlük Vətən müharibəsindən sonra Azərbaycan Şərqi Zəngəzuru işğaldan azad etsə də, Qərbi Zəngəzur hələ də Ermənistanın nəzarətindədir. Bu isə regionda yeni siyasi qarşıdurmalara yol açır. Ermənistan rəhbərliyi Zəngəzur dəhlizinin açılmasını öz suverenliyinə təhdid kimi təqdim edir. Azərbaycanın əsas mövqeyi budur ki, tarixi haqlar bərpa olunmalı, Qərbi Zəngəzurun Azərbaycan xalqına aid olduğu beynəlxalq səviyyədə qəbul edilməlidir.




Ermənistanın Qərbi Zəngəzurla bağlı iddiaları yalnız ərazi məsələsi ilə məhdudlaşmır. Onlar, eyni zamanda regionun tarixi-mədəni irsini də saxtalaşdırmağa çalışırlar. Erməni tarixçiləri qədim türk və alban abidələrini özününküləşdirmək üçün müxtəlif saxtakarlıqlara əl atırlar. Məsələn, Kəlbəcər rayonunda yerləşən Xudavəng monastırı tarixən Qafqaz Albaniyasına aid olduğu halda, erməni tarixçiləri onu "erməni irsi" kimi təqdim edirlər. Digər tərəfdən, Azərbaycan qəbir daşlarına və tarixi abidələrinə erməni yazıları həkk edilərək saxta tarixi faktlar yaradılır. Bu siyasətə qarşı Azərbaycan hökuməti dəfələrlə beynəlxalq təşkilatlara müraciət edib. UNESCO və BMT-yə təqdim olunan sənədlərdə erməni vandalizmi faktlarla göstərilib. Lakin təəssüf ki, beynəlxalq təşkilatların reaksiyası yetərli olmayıb. Ermənistan tərəfi isə hər fürsətdə öz saxta iddialarını dünya ictimaiyyətinə yaymağa çalışır.

1948-1953-cü illərdə azərbaycanlıların Ermənistandan kütləvi deportasiyası xalqımız üçün böyük faciə idi. Minlərlə insan öz dədə-baba yurdlarından didərgin salındı və Azərbaycanın Mil-Muğan bölgəsinə məcburi köçürüldü. Prezident İlham Əliyev öz çıxışında bu haqsızlığa diqqət çəkərək, Azərbaycan xalqının İkinci Dünya müharibəsində göstərdiyi fədakarlıqlara baxmayaraq, belə bir zülmə məruz qalmasını böyük ədalətsizlik adlandırıb. Azərbaycan İkinci Dünya müharibəsində SSRİ-nin qələbəsinə mühüm töhfə verən əsas respublikalardan biri olmuş, sovet ordusunun yanacaq ehtiyacının 90 faizini təmin etmişdi. Buna baxmayaraq, müharibədən cəmi bir neçə il sonra xalqımıza qarşı həyata keçirilən deportasiya və repressiyalar tarixin qara səhifələri kimi yadda qalmışdır. Bu gün Azərbaycan dövlətinin əsas vəzifələrindən biri həmin tarixi həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqdır. Tarix saxtalaşdırıla bilməz, həqiqətlərin üzə çıxması üçün isə maarifləndirmə işləri daha da gücləndirilməlidir. Azərbaycanın keçmişi ilə bağlı beynəlxalq arenada aparılan təbliğat gələcək nəsillərə düzgün tarixi miras qoymaq məqsədi daşıyır. Azərbaycan xalqının haqlı mübarizəsi və tarixi həqiqətlərin dünyaya bəyan edilməsi bu istiqamətdə mühüm addımlardandır.

Qərbi Zəngəzur məsələsi ədalət və fundamental insan hüquqları məsələsidir. Azərbaycan xalqının bu tarixi torpaqlara qayıtmaq hüququ həm beynəlxalq hüquq normaları, həm də tarixi faktlarla təsdiqlənir. Ermənistanın tarixi saxtalaşdırmaq və reallıqları təhrif etmək cəhdlərinə qarşı mübarizə aparmaq üçün Azərbaycanın elmi, siyasi və ictimai qüvvələri birgə və ardıcıl fəaliyyət göstərir. Tarixi ədalət gec-tez öz yerini tapacaq - Qərbi Zəngəzur Azərbaycanın əzəli torpağı kimi tanınacaq və onun sakinləri öz dədə-baba yurdlarına qayıdacaqlar.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**